

Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# İXRAC İCMALI

Fevral 2022

www.ereforms.gov.az
info@ereforms.gov.az

**Keçən il iqtisadiyyatımız 5 faizdən çox artıb, qeyri-neft sektorunda sənaye istehsalı isə təxminən 20 faiz artıb.**



Keçən il iqtisadiyyatımız 5 faizdən çox artıb, qeyri-neft sektorunda sənaye istehsalı isə təxminən 20 faiz artıb. Yanvar ayının ilk yekunları mənə bu günlərdə məruzə edildi. Nəticələr daha da ümidvericidir. İqtisadi artım təxminən 6 faiz, qeyri-neft sektorunda ümumi daxili məhsul təxminən 9 faiz, qeyri-neft sənaye istehsalı sahəsində isə artım 24 faiz olmuşdur. Bu da rekord göstəricidir. Yəni, bu onu göstərir ki, müsbət dinamika bu il də təmin ediləcək.

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin**
**fevral ayının 11-də AZƏRTAC-a müsahibəsindən**

# MÜNDƏRİCAT

Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ____ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ____ səh. 9

"Azərkosmos"a aid xidmət ixracı haqqında məlumat ____ səh. 12

Qeyri-rezidentlər tərəfindən aparılan bank əməliyyatları haqqında məlumat ____ səh. 14

Azexport.az portalına daxil olan sifarişlər haqqında məlumat ____ səh. 16

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən qeyri-neft ixracı haqqında məlumat ____ səh. 19

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2022-ci ilin yanvar ayı ərzində 3,1 milyard ABŞ dolları dəyərində mal ixrac olunmuşdur

## 2022-ci ilin yanvar ayında qeyri-neft sektoru üzrə ixrac 232,2 milyon ABŞ dolları təşkil etmişdir

2022-ci ilin yanvar ayı ərzində Azərbaycanın ixracı **3,1 milyard ABŞ dolları** olub. Qeyri-neft sektoru üzrə **232,2 milyon ABŞ dolları** dəyərində ixrac reallaşdırılıb. Qeyri-neft sektoru üzrə ixrac 2021-ci il ilə müqayisədə 86,2 milyon ABŞ dolları və ya 59 % artıb. 2021-ci il ərzində meyvə-tərəvəz məhsulları ötən ilin eyni dövrü ilə müqayisədə **15,8 milyon ABŞ dolları** artaraq 52,8 milyon ABŞ dolları təşkil edib. Müvafiq dövr ərzində alüminium və ondan hazırlanan məmulatların ixracı 56,5%, pambıq lifi ixracı 56,4%, pambıq ipliyi ixracı 34,5%, şəkər ixracı 24,1%, qara metallar və onlardan hazırlanan məmulatların ixracı  10,2%, kimya sənayesi məhsullarının ixracı  isə 9,3 dəfə artıb.

Normallaşma prosesinin davam etdiyi dövrdə 2022-ci ilin yanvar ayı ərzində yeyinti məhsulları üzrə ixrac ötən ilin müvafiq ayı ilə müqayisədə 31% artaraq 60,2 milyon ABŞ dolları, qeyri-yeyinti məhsulları üzrə isə

71,9% artaraq 172 milyon ABŞ dolları təşkil edib.

2022-ci ilin yanvar ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (71,1 milyon ABŞ dolları) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə ikinci (70,6 milyon ABŞ dolları) və Gürcüstan üçüncü (14,5 milyon ABŞ dolları) olub.

2022-ci ilin yanvar ayı ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı (22,2 milyon ABŞ dolları) birinci, xurma (17,1 milyon ABŞ dolları) ikinci və meşə fındığı (15,9 milyon ABŞ dolları) üçüncü olub.



# 2022-Cİ İLİN YANVAR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2021-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)






# 2022-Cİ İLİN YANVAR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2021-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2022 İXRAC İCMALI fevral



# 2022-Cİ İLİN YANVAR AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



2022 İXRAC İCMALI fevral

# 2022-Cİ İLİN YANVAR AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| | 2022 | 2021 |
|---|---|---|
| Pambıq mahlıcı | 22,2 | 14,3 |
| Xurma | 17,1 | 16,7 |
| Meşə fındığı | 15,9 | 10,2 |
| Karbamid | 14,6 | 1 |
| Tomat (pomidor) | 13,7 | 6,9 |
| Metanol (metil spirti) | 11,9 | 0 |
| PE Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 11,5 | 6,9 |
| PE Xüsusi kütləsi 0,94-dən çox olan ilkin formalı polietilen | 10,5 | 2,9 |
| PP İlkin formalı polipropilen | 10,3 | 10,1 |

# 2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ



2022-ci ilin yanvar ayı üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: “MKT İstehsalat Kommersiya” MMC, “Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti”nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, “Aqrovest” MMC, “P-Aqro” MMC, “Çinar Aqro” MMC, “Almeyvə” MMC, “Product Service” MMC, “ZR-78 Company” MMC, “RAM Beynəlxalq Nəqliyyat və Ticarət LTD” MMC, Nemət Yalçın Oqtay oğlu.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi” başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: “Socar Polymer” MMC, “Azəralüminium” MMC, “Azərpambıq Aqrar Sənaye Kompleksi” MMC, “Azəripək” MMC, “Azərbaycan Hava Yolları” QSC, “Naxçıvan MR Dövlət Energetika Xidməti”, “Azəri M-I Drilling Fluids” MMC”, “Bakı Metropoliteni” QSC, “EnerjiServisTikintiTəmirSazlama” MMC

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2022-Cİ İLİN YANVAR AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)





# 2022-Cİ İLİN YANVAR AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2022 İXRAC İCMALI fevral




* "SOCAR Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir

3

# “AZƏRKOSMOS”A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT



## 2022-ci ilin yanvar ayında “Azərkosmos” ASC 2 milyon ABŞ dollari dəyərində xidmət ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri sahəsi xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2022-ci ilin yanvar ayında “Azərkosmos” ASC tərəfindən dünyanın 29 ölkəsinə **2 milyon ABŞ dolları** dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilib. “Azərkosmos” ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **83 faizini** təşkil edib.

2022-ci ilin yanvar ayı ərzində peyk telekommunikasiya və optik peyk xidmətlərinin ixracının ilk beşliyində isə **0,5 milyon ABŞ dolları** ilə Birləşmiş Krallıq, **0,4 milyon ABŞ dolları** ilə ABŞ, **0,4 milyon ABŞ dolları** ilə Fransa, **0,2 milyon ABŞ dolları** ilə BƏƏ, **0,1 milyon ABŞ dolları** ilə Pakistan qərarlaşıb.

# 2022-Cİ İLİN YANVAR AYINDA "AZƏRKOSMOS" ASC 2 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR



Xidmət ixrac etdiyi 5 əsas ölkə



4

# QEYRİ-REZİDENTLƏR TƏRƏFİNDƏN APARILAN BANK ƏMƏLİYYATLARI HAQQINDA MƏLUMAT



## 2022-ci ilin yanvar ayı ərzində Azərbaycana gələn xaricilər bank kartları vasitəsi ilə 204,7 milyon manatlıq əməliyyat aparmışlar

Koronovirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməyib.

2022-ci ilin yanvar ayında xarici vətəndaşların bank kartları vasitəsi ilə ölkəmizdə apardıqları əməliyyatların həcmi **204,7 milyon manat** təşkil edib.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN BANK KARTLARI VASİTƏSİ İLƏ APARDIQLARI ƏMƏLİYYATLAR (milyon manatla)

| | 2020 | 2021 | 2022* |
|---|---|---|---|
| Yanvar | 85,2 | 72,2 | 204,7 |
| Fevral | | | |
| Mart | | | |
| Aprel | | | |
| May | | | |
| İyun | | | |
| İyul | | | |
| Avqust | | | |
| Sentyabr | | | |
| Oktyabr | | | |
| Noyabr | | | |
| Dekabr | | | |

* Mərkəzi Bankın 2022-ci il üçün yenilənmiş statistikası əsasında

5

# AZEXPORT.AZ PORTALINA DAXİL OLAN SİFARİŞLƏR HAQQINDA MƏLUMAT

## Portala daxil olan ixrac sifarişlərinin ümumi dəyəri 2 milyard 765 milyon ABŞ dolları təşkil etmişdir

2022-ci ilin yanvar ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri **45,2 milyon ABŞ dolları** təşkil edib.

2022-ci ilin yanvar ayında Azexport.az portalına ən çox ixrac sifarişi toyuq əti, toyuq yumurtası, şərab, xurma, pomidor, pambıq yağı, kərə yağı, tikinti materialları, tütün, mühərrik yağı, pambıq lifi və s. mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2022-ci ilin 31 yanvar tarixinə kimi (61 ay ərzində) Azexport.az portalına dünyanın 145 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri **2 milyard 765 milyon ABŞ dolları** təşkil edib.

# AZEXPORT.AZ PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN MƏBLƏĞİ
(milyon ABŞ dolları ilə)









# 2022-Cİ İLİN YANVAR AYINDA AZEXPORT.AZ PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

2022
İXRAC İCMALI
fevral



6

# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN QEYRİ-NEFT İXRACI HAQQINDA MƏLUMAT



## 2022-ci ilin fevral ayında “Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən 17 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə 2022-ci ilin fevral ayı ərzində 26 hüquqi və fiziki şəxslər tərəfindən **134 dəfə müraciət** daxil olunub. Ümumilikdə **296 ədəd sertifikat** (74 ədəd mənşə, 21 ədəd baytarlıq, 192 ədəd fitosanitar, 9 ədəd CITES) verilib.

Cari ilin fevral ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə **17 milyon ABŞ dolları** dəyərində ixrac həyata keçirilmişdir. Hüquqi və fiziki şəxslər tərəfindən qiymətli metallar, qurğuşun, pambıq mahlıcı, pambıq çiyidi, biyan kökü, yemlik arpa, nar, qarışıq şirələr, narşərab, akvakultur üsulu ilə yetişdirilmiş balıqların kürüsü, krast olunmuş iribuynuzlu heyvan dərisi, iribuynuzlu heyvanın penisi, təmizlənmiş duzlanmış qoyun bağırsağı, dondurulmuş toyuq ayaqları, polad boru, lak, torf, yataq dəsti, polad armatur yayması, tibbi zəli, istifadəyə yararsız işlənmiş katalizatorlar, pvb qırıntıları, buğda, çiyid, qarışıq meyvə, fıstıq, çiyid, günəbaxan tumu, mərci, düyü, lobya, yapışqanlı fanera, xurma, stul, şam ağacı, taxta paletin ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında pambıq mahlıcı, polad boru, qurğuşun, yemlik arpa, dondurulmuş toyuq ayaqları ixracı üstünlük təşkil etmişdir. Sertifikat verilən məhsullar İsveçrə, Tacikistan, Türkiyə, Rusiya, Sinqapur, İraq, İran, Belarus, ABŞ, BƏƏ, İtaliya, Honq-Konq, Fil Dişi Sahili, Ukrayna, Oman, Qırğızıstan, İsrail, Özbəkistana ixrac edilmişdir.



# 2022-Cİ İLİN FEVRAL AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI

(milyon ABŞ dolları ilə)



**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
"İxrac İcmalı" jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat